# İNŞAATÇI KADRLAR

Azərbaycan Memarlıq və İnşaat Universitetinin qəzeti

The newspaper of Azerbaijan University of Architecture & Construction

№3(459) 31 mart 2023-cü il www.azmiu.edu.az


## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik



**Hörmətli həmvətənlər!**

**Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval-ruhiyyəsi, cansağlığı və gələcək işlərinizdə nailiyyətlər arzulayıram.**

**Azərbaycan torpağında çox qədim kökləri olan Novruz bayramı əcdadlarımızın indiki nəsillərə müqəddəs yadigarıdır. Zamanın bütün sınaqlarından çıxaraq əsrlərin yaddaşında silinməz izlər qoyan bu el bayramı uzaq dövrlərdən bəri xalqımızın mənəvi dünyasının dərinliklərinə nüfuz etmiş, ənənəvi dəyərlərimizin təşəkkülündə mühüm rol oynamışdır. Ulu babalarımızın zəngin daxili aləmi, müdrik həyat fəlsəfəsi və gələcəklə bağlı işıqlı arzuları bahar bayramında dolğun təcəssümünü tapmışdır.**

**Ülvi bəşəri hisslərin daşıyıcısına çevrilən, yeniləşdirici gücə malik Novruz bayramı bu gün də insanlar arasında səmimi münasibətlərə yol açaraq dostluq, mərhəmət və xeyirxahlıq duyğularını möhkəmləndirir, cəmiyyətimizin vahid məfkurə ətrafında inkişafının ahəngdarlığını təmin edir. Milli varlığımızın ayrılmaz parçası saydığımız və yad təsirlərdən qoruduğumuz Novruz ənənələri mənəvi sərvətlərimizə hörmətlə yanaşmağımızın yüksək ifadəsi, eyni zamanda bəşər mədəniyyəti xəzinəsinə qiymətli töhfəmizdir.**

**Xatirəsini daim minnətdarlıqla andığımız şəhidlərimizin öz canları, qanları bahasına azadlıq bəxş etdikləri əzəli torpaqlarımızda gerçəkləşdirilən irimiqyaslı layihələr, geniş vüsət alan quruculuq işləri və əhalimizin doğma yurdlara qayıdışı ilə yenidən canlanan həyat yaz fəslinin Odlar diyarına builki gəlişinə xüsusi abhava qatır və rəmzi məna qazandırır.**

**Ölkəmizin hüdudlarından uzaqlarda yaşayan, qəlbi vətən sevgisi ilə döyünən və baharı bizimlə birgə qarşılayan soydaşlarımıza bayram salamlarımı yetirirəm.**

**Bu əlamətdar bayramın hər evə, hər ocağa yeni sevinc, bol ruzi-bərəkət və firavanlıq gətirməsini arzu edirəm.**

**Novruz bayramınız mübarək olsun!**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 mart 2023-cü il**

## Rektor əlaçı və yüksək nəticə göstərən tələbələrlə görüşüb



Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova universitetin əlaçı, həmçinin imtahanlarda yüksək nəticə göstərən tələbələri ilə görüşüb.

Görüşdə prorektorlar, fakültə dekanları və tələbə təşkilatlarının rəhbərləri də iştirak ediblər.

Professor Gülçöhrə Məmmədova göstərdikləri müvəffəqiyyətə görə tələbələri təbrik edib və onlara yeni uğurlar arzulayıb. Tədrisin daha da təkmilləşdirilməsi, elmi-texniki yeniliklərin tətbiqi və beynəlmiləlləşməsi ilə bağlı AzMİU-da görülən işlərdən, həmçinin planlardan danışan rektor bildirib ki, inkişaf üçün axtarışlar davam edir.

Professor Gülçöhrə Məmmədova qeyd edib ki, AzMİU-da tələbələrin biliyinin qiymətləndirilməsi, imtahanların təşkili və keçirilməsi ilə bağlı bütün mümkün tədbirlər görülüb. Bununla belə, hansısa çatışmazlıq olarsa, aradan qaldırılması üçün tələbələrdən təkliflər gözlənildiyini deyən rektor tələbələr arasında keçirilən sorğulara, onların universitet rəhbərliyi ilə görüşlərinə diqqət çəkib və tələbələri təşəbbüskar olmağa çağırıb.

Görüş diskussiya formatında davam etdirilib, tələbələr tərəfindən suallar və təkliflər səsləndirilib.

Sonda rektor tərəfindən 2022/2023-cü tədris ilinin payız semestrinin qış imtahan sessiyasında hər fakültə üzrə ən yüksək akademik nəticə göstərən tələbələrə diplomlar təqdim edilib.

**Tacir İSMAYILZADƏ,**
**Tələbə Gənclər Təşkilatının sədri.**

## Tələbələrimizə "StartUp School" layihəsi təqdim olunub

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) operatoru olduğu Enterprise Azerbaijan portalının rəhbəri Mətanət Musayeva Azərbaycan Memarlıq və İnşaat Universitetində tələbələrə "StartUp School" layihəsini təqdim edib.

Mətanət Musayeva universitetin Strateji planlaşdırma şöbəsi və İnnovativ Biznes İnkubatorunun (İBİ) təşkilatçılığı ilə keçirilən görüşdə enterpiseazerbaijan.gov.az portalının fəaliyyəti, gənclərə verdiyi töhfələr barədə məlumat verib. O bildirib ki, "StartUp School" layihəsinin reallaşdırılmasının məqsədi gənclərin ideyalarını reallığa çevirmək və innovasiyaların inkişafı istiqamətində onlara dəstək göstərməkdən ibarətdir.

Daha sonra layihənin mentoru Habil Əhmədov "Startapların inkişaf istiqamətləri" mövzusunda təlim keçib və layihə meneceri Nəzrin Əkbərova isə "StartUp School" haqqında tələbələrə geniş informasiya çatdırıb. O qeyd edib ki, layihəyə qoşulan tələbələr ABŞ, Türkiyə, İsrail və Polşadan olan beynəlxalq mentorların dəstəyi ilə startap ideyalarını inkişaf etdirə biləcəklər. Qalib komanda Nevada Universitetinin Özmen Sahibkarlıq Mərkəzinə getmək şansı əldə edəcəkdir.

Tələbələrlə təşkil olunan görüşdə AzMİU-nun Strateji planlaşdırma şöbəsinin müdiri Qənirə Məmmədzadə, İBİ-nin rəhbəri Nəsibə Əmirbəyova, şöbənin mütəxəssisləri, universitetin müxtəlif kurs tələbələri iştirak ediblər.

**Nigar ABDULLAYEVA,**
**Strateji planlaşdırma şöbəsinin mütəxəssisi.**

## Universitetimiz tələbələrin təcrübə keçmələri üçün 150 müəssisə ilə əməkdaşlıq edir




Azərbaycan Memarlıq və İnşaat Universiteti tələbələrin təcrübə keçmələri üçün 150 müəssisə və təşkilatla əməkdaşlıq edir. Bu qurumlardan 35-i 2022/2023-cü tədris ilində əməkdaşlığa cəlb edilib.

2022/2023-cü tədris ilində bu qurumlara bakalavriat səviyyəsi üzrə 1637, magistr səviyyəsi üzrə isə 442 olmaqla, ümumilikdə 2079 tələbə göndərilib.

Bunlardan 470 tələbə təcrübəyə öz müraciəti əsasında seçdiyi müəssisəyə göndərilib.

Qeyd edək ki, tələbələrin təcrübə keçmək üçün müəssisə seçmək hüququ var, lakin həmin müəssisə təcrübə üçün tələb edilən elmi, texnoloji və idarəetmə şərtlərini ödəməlidir.

**Xanlar QƏNİYEV,**
**Təcrübə və Karyera Mərkəzinin rəhbəri.**

## Beynəlxalq elmi seminar keçirilib

Azərbaycan Memarlıq və İnşaat Universiteti Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının təşkilatçılığı ilə hibrid formatda “Ali təhsil sahəsində beynəlxalq əməkdaşlıq (Azərbaycan və Özbəkistan universitetlərinin timsalında)” I Beynəlxalq Elmi Seminar keçirilib. AzMİU ilə İslam Kərimov adına Daşkənd Dövlət Texniki Universiteti arasında əldə olunan razılaşmaya əsasən keçirilən seminarda bu universitetlərlə yanaşı, Daşkənd Memarlıq və İnşaat Universiteti və Qırğızıstan–Türkiyə "Manas" Universitetinin prorektorları, həmçinin əməkdaşları da iştirak ediblər.

AzMİU-nun elm və innovasiya məsələləri üzrə prorektoru professor Nigar Aslanovanın moderatorluğu ilə baş tutan seminarda AzMİU-nun beynəlxalq əlaqələr üzrə prorektoru professor Nərgiz Abdullayeva, İslam Kərimov adına Daşkənd Dövlət Texniki Universitetinin tədris işləri üzrə prorektoru professor Orifjon Zaripov, Daşkənd Memarlıq və İnşaat Universitetinin tədris işləri üzrə prorektoru Erkin Xaltursunov və Qırğızıstan–Türkiyə “Manas” Universitetinin tədris işləri üzrə prorektoru professor Mehmet Sezai çıxış edərək iştirakçıları salamlayıb və seminarın işinə uğurlar arzulayıblar.

Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının müdiri Nurməmməd Məmmədov çıxış edərək bildirib ki, ali təhsil sahəsində beynəlxalq əməkdaşlıq təcrübə mübadiləsi və təhsilin inkişafı üçün son dərəcə vacibdir. Son illər Türk Dövlətləri Birliyi çərçivəsində əlaqələrin genişləndiyini deyən Nurməmməd Məmmədov qardaş ölkələrin bir sıra sahələrdə olduğu kimi, ali təhsil üzrə də aktiv əməkdaşlığı üçün əlverişli şəraitin yarandığını qeyd edib.

Seminar çıxış və müzakirələrlə davam etdirilib. Azərbaycan və Özbəkistan texniki universitetləri arasında ilk dəfə təşkil olunan seminarda texniki sahələr, tikinti sənayesi, sənaye və dövlət sektorunda enerjiyə qənaət məsələləri üzrə gələcəyin mütəxəssislərinin hazırlanması, miqrantların təhsil və maarifləndirmə yolu ilə cəmiyyətə inteqrasiyası, habelə dialoqun genişləndirilməsi ilə bağlı əsas məsələlər müzakirə olunub.

Qərara alınıb ki, seminarların davamlılığı təmin edilsin, həmçinin kafedralarda aparılan tədqiqatlarla bağlı qarşılıqlı məlumatlandırma, müəllim-tələbə mübadiləsi həyata keçirilsin və birgə elmi konfranslar təşkil edilsin.

## Startapçı tələbələrimiz KOICA-nın sertifikatını qazanıblar

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) və Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) birgə keçirdiyi akselerasiya və mentorluq proqramının bağlanış mərasimi keçirilib. Ümumilikdə 200-dən artıq müraciət əsasında formalaşan proqramı 11 startap komandası və 20 mentor uğurla başa vurub.

Proqram çərçivəsində startap komandalarının üzvləri və startaplar üçün mentorluq fəaliyyəti göstərən şəxslərə təlimlər keçirilib.



Proqramın keçirilməsində məqsəd ölkənin startap ekosistemində sağlam innovasiya mühitini formalaşdırmaq və yeni ekosistem oyunçularının bazara daxil olmasına təşviq etməkdir.

Qeyd edək ki, AzMİU-dan proqrama 6 müəllim və 2 startap komandası müraciət etmişdi. Əməkdaşlarımız Nəsibə Əmirbəyova, Günel İmamquliyeva, Tükəzban Həsənova, Fidan Məmmədova və Xanlar Qəniyev proqramın TTT mentorluq proqramı üzrə sertifikatla təmin olunublar. Eləcə də İBİ-nin rezidenti “N’us gallery” startapının rəhbəri Nigar Novruzzadə SAP proqramı üzrə sertifikatla təltif olunub.

**Günel HƏSƏNOVA,**
**PR və Media bölməsinin mütəxəssisi.**

## Xarici alimlərin iştirakı ilə vorkşop – İnşaat mühəndisliyi üzrə qlobal çağırışlar müzakirə olunub

Azərbaycan Memarlıq və İnşaat Universitetində Qara Dəniz Universitetləri Şəbəkəsinin (BSUN – Black Sea Universities Network) nümayəndə heyətinin iştirakı ilə "Böyük Çağırışlar Kontekstində İnşaat Mühəndisliyi – Mühəndislik Təhsilində Yeni Yanaşmalar" mövzusunda vorkşop keçirilib.



AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova çıxış edərək, vorkşop iştirakçılarını, o cümlədən xarici qonaqları salamlayıb və qlobal çağırışlar kontekstində mühəndisliyin əhəmiyyətinə diqqət çəkib. AzMİU-nun Azərbaycanın inşaat mühəndisliyi ixtisası üzrə 100 illik ali təhsil ənənəsini özündə birləşdirdiyini vurğulayan rektor, universitetdə mühəndislik təhsili üzrə tətbiq olunan yeni yanaşmalardan danışıb. Professor Gülçöhrə Məmmədova qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə aparılan tikinti-quruculuq işləri fonunda Azərbaycanda inşaat sektoruna qarşı keyfiyyət tələbləri son illər daha da yüksəlib və bu, həmin sahə üzrə kadr hazırlığı həyata keçirən AzMİU qarşısında yeni vəzifələr qoyub.

Rektor əlavə edib ki, ölkəmizin inşaat sektorunun peşəkar, yüksək ixtisaslı kadr potensialı ilə təmin olunması məqsədilə AzMİU xarici tərəfdaşları ilə sıx əməkdaşlıq edir, bu ixtisas üzrə dünyanın aparıcı universitetləri ilə ikili diplom müqavilələri icra edir və mütəmadi olaraq təcrübə mübadiləsi aparılır.

Yunanıstanın Saloniki Aristotel Universitetinin professoru Nikolaos Theodossiou "Davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində mühəndislərin rolu" mövzusunda məruzə ilə çıxış edib. Nikolaos Theodossiou çıxışında rəqəmsal transformasiya fonunda mühəndisliyə artan tələbata diqqəti cəlb edib. O qeyd edib ki, yeni geosiyasi çağırışlar çərçivəsində davamlı inkişaf məqsədlərinin təmin olunmasında ən çox yük mühəndislərin üzərinə düşür.

Qara Dəniz Universitetləri Şəbəkəsinin baş katibi professor Eden Mamut "Möhtəşəm vəzifələr kontekstində mühəndislik təhsilində paradiqmaların dəyişməsi" mövzusu ilə çıxış edib. Baş katib çıxışında mühəndislik təhsili ilə bağlı çağırışlara və bu çağırışlara cavab vermək üçün Qara Dəniz Universitetləri Şəbəkəsi çərçivəsində əməkdaşlığa diqqət çəkib.

Ukraynanın Zaporoji Politexnik Universiteti Senatının sədri professor Sergey Byelikov və həmin universitetin professoru Oleksey Nazarenko isə “Ukrayna müharibəsi fonunda yenidənqurma sahəsində mülki mühəndislik təhsilinin əsas məqsədləri” mövzusunda məruzə ilə çıxış ediblər. Alimlər çıxışlarında müharibə zamanı mülki mühəndisliyin əhəmiyyətindən və əldə olunan təcrübədən danışıblar.

**Qənirə ƏHMƏDOVA,**
**“İnşaatçı kadrlar” qəzetinin əməkdaşı.**

## AzMİU əcnəbi tələbələrlə iş sahəsində fərqlənməyə görə təltif edilib

Elm və Təhsil Nazirliyi tərəfindən əcnəbilərin ölkəmizdə təhsil almalarına cəlb olunmasının təşviqi və təşkili sahəsində xüsusi fərqlənən 5 ali təhsil müəssisəsi təşəkkürnamə ilə təltif edilib.

Təşəkkürnamələr Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə yanaşı, Azərbaycan Tibb Universiteti, Naxçıvan Dövlət Universiteti, Bakı Slavyan Universiteti və Xəzər Universitetinə təqdim olunub. Müəssisələr əcnəbilərin sayında son 5 tədris ili üzrə artım dinamikası, tələbələrin qəbulu və məlumatların toplanılması sistemlərinin səmərəli istifadəsi, əcnəbi tələbələrin ictimai-sosial aktivliyinin təmin edilməsi meyarları nəzərə alınmaqla təltif olunub.











Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov əcnəbilərin cəlbinin təşviqinin prioritet istiqamətlərdən biri kimi dəyərləndirilməsi və bu çərçivədə irəliləyişlərə nail olunması istiqamətində vacib məsələlərə dair məlumat verib. O, eyni zamanda, sözügedən sahədə birbaşa fəaliyyət göstərən təhsil müəssisələrinin rolunu qeyd edərək bu istiqamətdə gələcəkdə daha çox işlərin görülməli olduğuna və əcnəbilərin təhsilinə diqqətin artırılmasının əhəmiyyətinə toxunub.

Qeyd edək ki, görüşdə yuxarıda adları çəkilən yerli ali təhsil müəssisələrinin nümayəndələri də iştirak ediblər.

**Elm və Təhsil Nazirliyinin mətbuat xidməti.**

## AzMİU Elmi Şurasının növbəti iclası keçirilib

Martın 29-da Azərbaycan Memarlıq və İnşaat Universitetində Elmi Şuranın növbəti iclası keçirilib.

Elmi Şuranın sədri, universitetin rektoru professor Gülçöhrə Məmmədova Şura üzvlərini salamlayaraq onları iclasın gündəliyində duran məsələlərlə tanış edib.

Gündəliyə uyğun olaraq iclasda "Payız sessiyasının yekunları və yaz sessiyasına hazırlıq barədə", "Tədris, istehsalat, elmi-tədqiqat və elmi-pedaqoji təcrübələrin gedişi və istehsalat müəssisələri ilə cari əlaqələr, perspektiv planlar barədə" hesabatlar dinlənilib.

Tədris işləri üzrə prorektor professor Akif Qasımov gündəlikdəki ilk məsələ ilə bağlı çıxış edib. Prorektor payız sessiyasının yekunları və yaz sessiyasına hazırlıq məsələləri, imtahan sessiyasının təşkili, imtahanların obyektiv və şəffaf keçirilməsi üçün görülən işlər barədə məlumat verib.

Təcrübə və Karyera Mərkəzinin rəhbəri Xanlar Qəniyev "Tədris, istehsalat, elmi-tədqiqat və elmi-pedaqoji təcrübələrin gedişi və istehsalat müəssisələri ilə cari əlaqələr, perspektiv planlar barədə" hesabatında universitetin bu istiqamətdəki fəaliyyəti ilə bağlı məlumat verib.

Hesabatlardan sonra geniş müzakirələr təşkil olunub. Müzakirələr zamanı səsləndirilən rəy və təkliflərlə bağlı rektor müvafiq tapşırıq və tövsiyələrini verib. Hər iki hesabat Elmi Şura tərəfindən qəbul edilib.

Şura iclasında digər cari məsələlərə də baxılıb və müzakirəyə çıxarılan məsələlər ətrafında Şura üzvləri çıxış edib, təklif və rəylər dinlənilməklə müvafiq qərarlar qəbul olunub.

Elmi Şuranın iclasında müsabiqə işlərinə də baxıldı.

Yeganə Hacıyeva professor, Azər Qasımzadə, Fuad Lətifov, İlham Mərdanov yenidən professor, Akif Hacıyev dosent vəzifələrinə seçildilər.

Şəhla Əlizadəyə və Bəşər Şirinova dosent elmi adı verilməsi barədə isə Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırıldı.

## Universitetimizdə böyük alim Davud Axundovun 105 illiyinə həsr olunmuş elmi seminar





Martın 2-də Azərbaycan Memarlıq və İnşaat Universitetində görkəmli memar və tarixşünas, Azərbaycan SSR Dövlət mükafatı laureatı, Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının üzvü Davud Axundovun 105 illiyinə həsr olunmuş elmi seminar keçirilib.

AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova çıxış edərək bildirib ki, Davud Axundov Azərbaycanın tarixi memarlıq irsinin tədqiqində xüsusi yeri olan və AzMİU-da abidələrin bərpası işini elmi istiqamət kimi quran böyük alimdir. Rektor qeyd edib ki, Davud Axundovun memarlıq irsimiz, xüsusilə islam sivilizasiyasından öncəki memarlığımızla bağlı elmi işləri azərbaycanlıların tarixən bu ərazilərdə yaşadığını sübut edən əvəzsiz tədqiqatlardır. Ermənilərin Sovet dövründə və sonrakı illərdə memarlıq abidələri üzərindən sistemli şəkildə Azərbaycanda "erməni izləri" yaratmağa çalışdıqlarını deyən professor Gülçöhrə Məmmədova nəzərə çatdırıb ki, bu məkirli plan böyük alimin Qafqaz Albaniyasının mədəniyyətinə və incəsənətinə aid tədqiqatları ilə birdəfəlik məhv edildi.

Rektor əlavə edib ki, Davud Axundov yaradıcılığındakı milli xəttin davam etdirilməsi, onun yetişdirdiyi alimlər tərəfindən gənc alimlərin yetişdirilməsi və tarixi memarlıq irsimizin, xüsusilə 30 ildən sonra azad edilən ərazilərimizdəki abidələrimizin tədqiqi son dərəcə vacibdir.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi, AzMİU-nun Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasının müdiri professor Səbinə Hacıyeva Davud Axundovun həyat və yaradıcılığı ilə bağlı geniş məruzə ilə çıxış edib. Professor Səbinə Hacıyeva qeyd edib ki, tarixi abidələrimizin bərpası istiqamətində böyük işlər görən Davud Axundov 1942-ci ildən layihəçi-memar kimi əmək fəaliyyətinə başlayıb. Bakıda, Sumqayıtda, Ağdamda, Mingəçevirdə və digər şəhərlərdə bir sıra yaşayış binalarının müəllifi olub. 1949–1963-cü illərdə onun layihələri əsasında Bakı, Krasnovodsk, Mahaçqala, Həştərxan və s. şəhərlərdə 100-dən artıq çoxmərtəbəli yaşayış evləri, yataqxana, klub, sənaye binaları tikilib.

1970–2003-cü illərdə Memarlıq konstruksiyaları kafedrasının müəllimi olan Davud Axundov qədim Azərbaycan memarlığının nəzəri məsələlərinə dair bir çox elmi əsərin müəllifidir. Qafqaz Albaniyasının bütpərəstlik və xristianlıq dövrü memarlığının ilk tədqiqatçısı olan Davud Axundov memarlıqda bu istiqamətin əsasını qoyub. Onun "Qədim və orta əsrlər Azərbaycan memarlığı" (1986, rus dilində) adlı monoqrafiyasında Qafqaz Albaniyası dövründə Azərbaycan memarlığının inkişaf mərhələləri araşdırılıb. Azərbaycan memarlığının inkişafındakı xidmətlərinə görə 1990-cı ildə Dövlət mükafatı laureatı olub, 2002-ci ildə "Şöhrət" ordeni ilə təltif edilib, elə həmin ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olub.

Davud Ağa oğlu Axundov 2003-cü il noyabrın 19-da vəfat edib.

Seminarda Memarlar İttifaqının sədri, AzMİU-nun Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrasının müdiri professor Elbay Qasımzadə, Davud Axundovla birgə fəaliyyət göstərmiş alimlər, onun yetirmələri və oğlu memar Cəmil Axundov da çıxış edərək böyük alimlə bağlı xatirələrini bölüşüb, onun memarlıq elminin inkişafına verdiyi töhfələrdən danışıblar.

Seminarın yekununda Davud Axundovun yaradıcılığından bəhs edən kitabın hazırlanması və onun tədqiqat işlərinin davam etdirilməsi tövsiyə olunub.

**Məlahət EYNULLAYEVA,**
**Memarlıq fakültəsinin dekan müavini.**




Azərbaycan Memarlıq və İnşaat Universitetində 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş anım tədbiri keçirilib.

Anım tədbirində Dövlət Himni səsləndirilib, şəhidlərin, soyqırımı qurbanlarının və qardaş Türkiyədə zəlzələ nəticəsində həlak olanların xatirəsi ehtiramla yad edilib.

Tədbiri universitetin rektoru professor Gülçöhrə Məmmədova açaraq Mart soyqırımının tarixi, siyasi və ideoloji aspektlərindən danışıb. Rektor XX əsrin əvvəllərindən başlayaraq, xüsusilə 1918-ci ildə erməni daşnaklarının xalqımıza qarşı kütləvi qırğınlar törətdiyinə, yaşayış məntəqələrini, məscidləri, tarix və mədəniyyət abidələrini yerlə-yeksan etdiyinə diqqət çəkib. Professor Gülçöhrə Məmmədova bildirib ki, bu siyasət sonrakı illərdə, xüsusilə 1948–1953-cü illərdə də başqa formada həyata keçirilib və bununla azərbaycanlıların tarixi torpaqlarındakı izlərinin silinməsinə cəhd edilib.

Rektor qeyd edib ki, mənfur düşmənin havadarları ilə birgə 100 ildən çoxdur ki, davam etdirdiyi işğal, deportasiya və soyqırımı siyasətinə 44 günlük Vətən müharibəsilə ağır zərbə vuruldu: "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun qələbəsi nəticəsində tarixi ədalət bərpa olundu və xalqımız "Böyük Qayıdış" proqramı çərçivəsində doğma torpaqlarına qayıdır. Bununla belə, biz keçmişi, düşmənin məkirli siyasətini unutmamalıyıq və dövlətimizə qarşı olan təhdidləri doğru analiz edib bir yumruq kimi birləşməliyik".

Professor Gülçöhrə Məmmədova əlavə edib ki, yüksək qabiliyyətli milli kadrların yetişməsi üçün tarixi keçmişimizin öyrənilməsi vacibdir və AzMİU-da bununla bağlı müxtəlif layihələr, proqramlar icra edilir, tədbirlər keçirilir.

Sonra Müdafiə Nazirliyinin Sənədli və Tədris Filmləri Mərkəzi tərəfindən hazırlanan "31 Mart Soyqırımı" filmi izlənilib. Filimdə Azərbaycanlıların soyqırımı ilə bağlı arxiv materialları, tarixi faktlar, eləcə də alimlərin, ekspertlərin şərhləri yer alıb.

***

Universitetimizin bir qrup tələbəsi 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Quba rayonuna səfər edib. Onlar orada Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər. Səfər zamanı universitetimizin nümayəndə heyəti faciə qurbanlarının xatirəsini yad edib, xatirə daşı önünə əklil qoyublar.

**Sevda MƏMİYEVA,**
**İnşaat fakültəsinin I kurs tələbəsi.**

## AzMİU-da "Yeni Klub" təsis olunub



Azərbaycan Memarlıq və İnşaat Universitetində "Yeni Klub"un təsis toplantısı keçirilib. Tədbir iştirakçıları Azərbaycan Memarlıq və İnşaat Universitetində Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq ümummilli liderin əziz xatirəsinə ehtiramlarını ifadə ediblər. Universitetin əsas korpusunun birinci mərtəbəsində yaradılan "Qəhrəmanlar güşəsi" də ziyarət olunub.

Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin, eləcə də qardaş Türkiyədə təbii fəlakət nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Təsis toplantısını giriş nitqi ilə açan YAP İdarə Heyətinin üzvü, AzMİU Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Bayram Aslanov və AzMİU-nun Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Orxan Naqdiyev çıxışlarında ali təhsil müəssisəsində tələbələrin ictimai aktivliyini və şəxsi inkişafını dəstəkləyən klubun formalaşdırılmasının mühüm əhəmiyyətə malik olduğunu bildiriblər. Qeyd olunub ki, bu gün Azərbaycanda gənclərin potensialının milli maraqlar naminə səmərəli idarə edilməsi və inkişafı üçün dövlət və ictimai-siyasi təşkilatlar tərəfindən uğurlu proqramlar həyata keçirilir.

Daha sonra AzMİU-nun nəzdində formalaşdırılan "Yeni Klub"un rəhbəri Nesin Hüseynova, koordinatorlar Eldar Süleymanlı və Elyar Novruzov təqdimatla çıxış ediblər. Bildirilib ki, ali təhsil müəssisəsi daxilindəki klub təşkilatlar ilə birgə fəaliyyət göstərəcək, yarışlar, müsabiqələr, layihələr, təlimlər, xarici dillərdə tədbirlər təşkil edəcək.

Çıxışında ali təhsil müəssisələrinin nəzdində "Yeni Klub"ların formalaşdırılmasının əhəmiyyətindən bəhs edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov qeyd edib ki, klublar tələbələrin şəxsi inkişafını dəstəkləməklə yanaşı, onların cəmiyyətdə təşəbbüskar rolunun artırılmasında da mühüm rol oynayacaqdır.

# Qadınlar cəmiyyətimizin fəal qurucularıdır



Tarix səhifələrində Azərbaycan qadınının qəhrəmanlıq, mərdlik, fədakarlıq, sədaqəti yazılmış zəngin mədəniyyət tarixçəsi var. Bu səhifələrdə Azərbaycan qadını milli adətləri, vətənpərvərliyi, əxlaqi keyfiyyətləri, düşüncə tərzi ilə tanınmaqdadır. Sağlam mühitin, sağlam ailənin təminatı olan qadınların cəmiyyətdəki müstəsna əhəmiyyətini dahi Hüseyn Cavid bu iki misrası ilə çox gözəl tərənnüm etmişdir:

**Qadın gülərsə, şu issız mühitimiz güləcək,**
**Sürüklənən bəşəriyyət qadınla yüksələcək!**

Azərbaycan Memarlıq və İnşaat Universitetinin Əcnəbi dillər kafedrasının təşkilatçılığı ilə universitetdə 8 Mart – Beynəlxalq Qadınlar Günü ilə bağlı ədəbi-bədii tədbir keçirilib.

Tədbirdə AzMİU tələbələrinin ifasında qadınları, onların cəmiyyətdəki müstəsna rolunu tərənnüm edən şeirlər səsləndirilib, rəqslər, eləcə də tarixi qadın şəxsiyyətləri ilə bağlı səhnəciklər nümayiş etdirilib.

Bədii hissədən sonra AzMİU-nun prorektorları Nigar Aslanova, Orxan Naqdiyev və universitetin Əcnəbi dillər kafedrasının müdiri Aygün Məmmədova çıxış edərək tələbələrə təşəkkürlərini bildirib və 8 Mart tarixindən, bu tarixin ictimai, siyasi və mədəni əhəmiyyətindən danışıblar.

Qeyd olunub ki, Şərqdə qadınlara ilk dəfə seçmək və seçilmək hüququ verən Azərbaycanda, eləcə də AzMİU-da qadınlara böyük diqqət və qayğı göstərilir.

Sonda 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə AzMİU-nun bütün qadın əməkdaşlarına təbrik ünvanlanıb!

**"İnşaatçı kadrlar"**

# Xalq rəssamı Arif Əzizin sərgisi açılıb



Azərbaycan Memarlıq və İnşaat Universitetində Xalq rəssamı, Dünya Rəssamlıq Akademiyasının akademiki və Azərbaycan filialının prezidenti, Şöhrət ordenli, professor Arif Əzizin 80 illik yubileyinə həsr olunmuş fərdi sərgisi açılıb.

AzMİU-nun Memarlıq fakültəsinin və İtaliya–Azərbaycan Dizayn Mərkəzinin birgə təşkilatçılığı ilə reallaşan sərgidə AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova, sənətşünas alim Sevil Kərimova, universitet rəhbərliyi, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

AzMİU-nun rektoru, Əməkdar memar professor Gülçöhrə Məmmədova çıxış edərək dedi ki, ötən əsrin 70-ci illərindən başlayaraq Arif Əziz dizayn, dekorativ-tətbiqi sənət, bədii tərtibat, kitab qrafikası, teatr dekorasiyası, moda, rəngkarlıq sahələrində çalışaraq, Azərbaycan incəsənətinin müasir vəziyyətinin formalaşmasına böyük təsir göstərib.

AzMİU-nun Memarlıq fakültəsinin dekanı professor Zahidə Məmmədova çıxışında Arif Əzizin Azərbaycan incəsənətində rolunu vurğulayıb, sərginin tələbələr üçün əhəmiyyətinə diqqət çəkib.

İtaliya–Azərbaycan Dizayn Mərkəzinin rəhbəri, memarlıq üzrə fəlsəfə doktoru Fərid Kərimov rəssamın dizayn sahəsində axtarışlarının fənlərarası aspektlərini vurğulayıb, onun mədəni irsimizin təbliğində rolunu qeyd edib.

AzMİU-nun əməkdaşı, Əməkdar müəllim və Arif Əzizin tələbəsi Yaşar Səmədov yubilyarla bağlı xatirələrini bölüşüb.

Sənətşünas alim dosent Sevil Kərimova isə çıxışında Arif Əzizin yaradıcılığına dair şərhlər verib.

Sonda tədbir iştirakçıları sərgi ilə yaxından tanış olublar.

**Pərviz CƏFƏROV.**
**Təsviri incəsənət kafedrasının müdiri.**

# 2023-cü il üzrə Novruz mühazirələri yekunlaşdı

Azərbaycan Memarlıq və İnşaat Universitetində hər il təşkil olunan Novruz mühazirələrinə 2023-cü il üzrə yekun vuruldu.

Bu ilin sonuncu Novruz mühazirəsinin məruzəçisi AzMİU-nun Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının müdiri Nurməmməd Məmmədov olub. O, tələbələrə "Qarabağ yaşıl enerji zonası olacaq" mövzusunda mühazirə oxuyub. Mühazirə zamanı Prezident İlham Əliyevin Qarabağda yaşıl enerji zonasının yaradılması ilə bağlı sərəncamı diqqətə çatdırılıb və bununla əlaqədar şərhlər verilib. Qeyd olunub ki, işğaldan azad olunmuş ərazilərin enerji potensialının düzgün qiymətləndirilməsi üçün həyata keçirilən işlər, ərazinin enerji təchizatı ilə bağlı hazırlanan layihələr və Azərbaycanın bu istiqamətdə dövlət siyasəti həmin əraziləri yaxın gələcəkdə yaşıl enerji zonasına çevirəcəkdir.

Qeyd edək ki, bu, 2023-cü ildə AzMİU-da keçirilən sayca 5-ci Novruz mühazirəsidir. Bundan öncə Bayram Aslanovun "Gənclər siyasətində milli-mənəvi dəyərlərimizin əhəmiyyəti", Azər Qasımzadənin "Zəlzələ mühəndislərin gözü ilə", Zahidə Məmmədovanın "Qarabağ məscidlərinin memarlıq xüsusiyyətləri" və İradə Şirinzadənin "Qarabağda inşaat materialları sənayesinin inkişaf perspektivləri" mövzusunda mühazirələri dinlənilib.

**Nicat ABDULLAYEV,**
**PR və Media bölməsinin rəhbəri.**

# Keçəl nə üçün Novruz bayramı tədbirində iştirak etmədi?



Azərbaycan Memarlıq və İnşaat Universitetində Su təssərüfatı və mühəndis kommunikasiya sistemləri fakültəsinin və Tələbə Gənclər Təşkilatının (TGT) birgə təşkilatçılığı ilə Novruz bayramına həsr olunmuş ədəbi-bədii konsert proqramı təqdim edilib.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və Şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsilə başlayan tədbirdə universitet rəhbərliyi, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova çıxış edərək universitet əməkdaşlarını və tələbələri Novruz bayramı münasibətilə təbrik edib. Rektor təbrik çıxışında artıq ərazilərimizin işğaldan azad olunmasına və orada aparılan bərpa, tikinti-quruculuq işlərinə diqqət çəkib: "Biz Novruzu, yaxud da başqa bayramlarımızı Şuşada, vaxtilə işğalda olan digər ərazilərimizdə qeyd etməyi arzulayırdıq. Bu arzumuz gerçəkləşdi, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz ərazilərimizi işğaldan azad etdi, biz qalib gəldik, lakin mübarizə davam edir. Sizin – ixtisaslı memarların, mühəndislərin iştirakı ilə həmin ərazilər yenidən qurulmalı, xalqımız ata-baba yurduna qayıtmalıdır. Bunun üçün AzMİU-nun müəllim və tələbələri var gücləri ilə çalışmalı, bu haqq işində dövlətimizin və xalqımızın yanında olmalıdır".

Professor Gülçöhrə Məmmədova Novruzun bahar rəmzi, təbiətin oyanışını ehtiva edən bayram olmasına diqqət çəkərək əməkdaş və tələbələri yeni ruhla, əzmlə çalışmağa, daha çox nailiyyətlər əldə etməyə çağırıb.

Daha sonra konsert proqramına başlanılıb. Konsert proqramı xalqımızın köklü sənət nümunəsi olan aşıq ifası ilə başlayıb. Universitetin bədii yaradıcılıq qrupunun üzvləri tərəfindən saz ifası altında aşıq mahnıları oxunub.

Bədii hissəni AzMİU-nun "Buta" rəqs qrupu milli rəqs nümunələri ilə davam etdirib.

Universitetin əcnəbi tələbələri də bayram konsertində çıxış ediblər. Türkiyədən olan tələbələr davul sədaları altında müxtəlif mahnılar ifa ediblər.

Keçəl konsert izləyicilərini intizarda saxlasa da, Kosa və Bahar qızının onun Şuşada olduğunu deməsi hər kəsi qürurlandırıb. Başqa diqqət çəkən məqam isə səhnənin önündə yerləşdirilən AzMİU müəllim və tələbələri tərəfindən hazırlanan Şuşa qalası maketi olub.

Konsert proqramı digər səhnələrlə davam etdirilib.

**PR və Media bölməsi.**

**Abbas SƏHHƏT**

## YAZ

O gün ki fəsli-yaz olar,
Gecə, gündüz taraz olar.
Havanın artar istisi,
Daha soyuqluq az olar.

Ərir dağın, çölün qarı,
Axar dərələrə sarı.
Gurultu ilə sel gələr,
Salar sədaya çayları.

Qaranquş ol zaman gələr,
Yenə tikər yuvasını,
Qonar yaşıl ağaclara,
Oxur gözəl havasını.



# Həvəskar tələbə rəssamlar "3D Street Art" təlimində iştirak ediblər

Bakı Liman İncəsənət Mərkəzi, Gənclər və İdman Nazirliyi və Gənclərin İnkişafı İctimai Birliyinin dəstəyi ilə Bakı Dəniz Vağzalında gənc həvəskar rəssamlar üçün "3D Street Art" təlimi təşkil olunub.

Təlimdə Azərbaycan Memarlıq və İnşaat Universiteti Tələbə Gənclər Təşkilatının Gənc rəssamlar dərnəyinin fəal üzvləri iştirak ediblər. Tələbələr təlim zamanı barellər üzərində rəsmlər çəkiblər.

Təlimi uğurla başa vuran gənclər sertifikatla təltif olunublar.

**Təsisçi:**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**

**Redaktor:**
**Akif HACIYEV**

**Qeydiyyat № 316**
**Qəzet 1983-cü ildən çıxır**

**Ünvanımız:**
**Az1073, Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11**



**E-mail:**
**redaksiya@inbox.ru**
**Telefon: 539-07-28**
**daxili 5-43, 6-08**

**Qəzet "Azərbaycan" nəşriyyatının kompüter mərkəzində səhifələnmiş və ofset üsulu ilə çap olunmuşdur**

**Tiraj 300**
**Sifariş 796**